**Temurova Səbinə**

# LİRİK ƏSƏRLƏRİN MƏZMUNUNUN ÖYRƏDİLMƏSİNƏ VERİLƏN MÜASİR TƏLƏBLƏR

Təhsilin dinamik inkişafı, qlobal dünya siyasətinə uyğunlaşdırılması sahəsində böyük işlər aparılmışdır. Azərbaycan Respublikasının təhsil sistemi demokratik və humanist prinsiplər üzərində qurulmuşdur. Azərbaycan təhsil sistemində "kurikulum" yeni bir anlayışdır və öz üstünlüklərini göstərməkdədir. Kurikulumun mahiyyətinə yanaşmalar müxtəlif olmuşdur. Bu anlayışın qəbul edilməsi asan olmamışdır. Yenilik hər zaman asan qəbul edilmədiyi kimi, bu məsələ də ənənəvi təlimə alışanlar tərəfindən birmənalı şəkildə müsbət qarşılanmamışdır. Bu barədə səthi düşünənlər hələ də var. Bu isə təbiidir. Bəs kurikulum nədir? Kurikulum yeni anlamda təhsil proqramı, tədris planı, standartları, məzmun xətləri, idrak və təlim metodları, təhsillə bağlı bütün sənədləri özündə birləşdirən konseptual sənəddir.

Azərbaycan Respublikasının təhsil sistemində ayrı-ayrı fənnlər üzrə fənn kurikulumları təşkil olunmuşdur. Boloniya prosesindən maksimum istifadə bizə fənn kurikulumlarını yaratmağa imkan verir. Fənn kurikulumlarının tətbiqi uşaqların fikirlərini sərbəst şəkildə ifadə etməsinə şərait yaradır. Orta məktəbdə ədəbiyyat tədrisinin başlıca məqsədi şagirdlərə yüksək bədii zövq aşılamaqla onların estetik hisslərini, gözəlliyi duymaq, dəyərləndirmək qabiliyyətini formalaşdırmaq və inkişaf etdirməkdir [5, s.3]. Söz sənəti insanın mənəvi tərbiyəsi ilə məşğul olur. O, xalqın mübarizəsini, mədəni irsini, adət-ənənələrini qoruyub saxlayır. Dərs hər zaman olduğu kimi, bu gün də tədris prosesinin əsasını təşkil edir. Buna görə də müasir məktəblərin qarşısında çox mühüm vəzifələr dayanır. Onlar şagirdlərə müstəqil düşünməyi öyrədir. Bu isə dərs zamanı mühümdür. Müasir dərs isə öz rəngarəngliyi, şagirdləri fəaliyyətə cəlb etməsi ilə ənənəvi dərsdən fərqlənir. Eyni zamanda müasir dərsdə hər bir şagirdin fərdi xüsusiyyətləri, maraqları, eləcə də cəmiyyətin sifarişi nəzərə alınır. Müəllim hər dərsə yaradıcı yanaşır, daim axtarışda olur, hər bir mövzunun tədrisinin səmərəli qurulması üçün müxtəlif vasitələrdən istifadə edir. Ümumtəhsil məktəblərində, ədəbiyyat dərslərində tədris olunan əsərlər janrca müxtəlifdir. Əsərin janrına əsasən onun tədrisi xüsusiyyətlərini nəzərə almaq lazımdır. Şagirdlər bədii əsərin estetik dəyərini, emosionallığını və bədii təsirini poeziya nümunələri ilə daha tez mənimsəyirlər. Lirik əsərlər üçün epik və dramatik növdə olduğu kimi insanın məişətinin, həyat həqiqətlərinin obyektiv reallığa uyğun təsviri deyil, qəhrəmanın ovqatı, yüksək hiss və həyəcan, emosionallıq və yığcamlıq, tərənnüm, obyektə subyektiv münasibət səciyyəvidir [5,s.236]. Lirik növün janrlarının demək olar ki, hamısı proqram və dərslikləri əhatə edir. Bundan əlavə, lirik növün janrlarından sinifdən xaric oxu materialı kimi istifadə olunur. Lirik əsərlərin əsasını tərənnüm təşkil edir. Burda qəhrəmanın ovqatı, hiss və həyəcanı əsas yer alır. Lirik əsərin əsasında duran ovqat, hiss və həyəcan şagirdə aydın, tanış olmalıdır. Fənn kurikulumlarının məzmun standartlarına uyğun olaraq orta məktəblərdə müxtəlif janrlarda lirik əsərlər: qəzəl, qəsidə, məsnəvi, qitə, rübai, tuyuq və s. öyrədilir. Həmin əsərlərin öyrədilməsində interaktiv təlim metodlarından istifadənin böyük əhəmiyyəti var. Dərsliklərdə verilən lirik əsərlər daha çox vətənpərvərlik, əməyə məhəbbət, təbiət təsviri, sevgi, ilahi eşq və s. haqqındadır. Hazırki dövrdə lirik əsərlərin qavranılmasında müəyyən çətinliklər var. Bunun müxtəlif səbəbləri var. Onlardan biri şeir şəkilləri, onun xüsusiyyətləri, qayda-qanunlarına yaxından bələd olmamaqdır. Şagirdlərin qafiyə, vəzn, bölgü, təkrir, rədif və s. haqqında biliklərin az olması onların lirik əsəri yaxşı bilməsinə mane olur. Bəs bu lirik əsərlər tədris prosesində şagirdlərə necə mənimsədilir? Onların məzmununun öyrədilməsinə verilən tələblər hansılardır? Fəal təlim prosesində lirik əsərlər yeni təlim texnologiyalarından istifadə olunaraq tədris olunur.

Metodistlər lirik əsərlərin məzmununun öyrədilməsinə verilən tələblərə müxtəlif aspektdən yanaşmışlar.

Metodist alim Y.Aslanovun təsnifatı isə belədir:

1.Dərsdə yüksək təhsil və tərbiyə səmərəsi əldə edilməlidir.
2.Lirik əsərin tədris olunduğu dərsin quruluşu aydın olmalıdır.
3.Lirik əsərlərin tədrisi təhsilverici, tərbiyəedici və inkişafetdirici olmalıdır.
4.Qarşılıqlı əks əlaqənin ardıcıllığı təmin edilməlidir.
5.Lirik əsərlərin tədrisi zamanı əyani və texniki vəsaitlərdən istifadə olunmalıdır.
6.Humanizm təbliğ olunmalıdır [2,s.32].

Müasir dövrün tanınmış metodistlərindən olan B.Həsənli isə lirik əsərlərin məzmununun öyrədilməsinə verilən tələbləri bu cür qruplaşdırmışdır:

1.Mövzu ilə bağlı orijinal formanın seçilməsi, fərdi, cütlər, qruplar üzrə və kollektiv işin uzlaşdırılması.

2.Mövzu ilə əlaqədar ədəbi, mənəvi-estetik problemin müəyyən edilməsi və həlli prosesinə şagirdlərin fəal cəlbi.

3.Lirik əsərlərin tədrisində müəllim-şagird, şagird-şagird əməkdaşlığının, həssas ünsiyyətin, emosional, işgüzar mühitin yaradılması.

4.Lirik əsərin səviyyəsinə uyğun fəal, interaktiv təlim metodlarından istifadə.

5.Mövzunun dərs prosesində mənimsədilməsi.

6.Təhsil, tərbiyə və inkişaf vəzifələrinin qarşılıqlı əlaqədə həyata keçirilməsi, mövzu ilə bağlı şagirdlərə müvafiq həyat bacarıqlarının aşılanması.

7.Təlim vaxtının optimal bölüşdürülməsi.

8.Lirik əsərlərin tədrisi zamanı informasiya, kommunikasiya texnologiyalarından istifadə edilməsi.

9.Fəndaxili və fənlərarası inteqrasiyasının yaradılması [5,s.59].

Bütün bunları nəzərə alaraq qeyd edə bilərik ki, ədəbiyyat proqramları və dərslikləri vaxtaşırı olaraq yeniləşməsinə və təkmilləşməsinə baxmayaraq, lirik əsərlərlə bağlı bilik, bacarıq və vərdişlər müasir tələblərdən çox aşağı səviyyədədir.


1. **Ədəbiyyat**
2. Aslanov Y. Ədəbi axtarışlar və tədris. Bakı, 2013.
3. Aslanov Y. Ənənə və müasirlik. Bakı, 2011.
4. "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı". Bakı, 1999.
5. Əhmədov C. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 1991.
6. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2016.
7. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2015.

***Açar sözlər:*** təhsil, kurikulum anlayışı, fənn kurikulumu, müasir dərs, lirik əsərlərin tədrisi.

***Ключевые слова:*** образование, понятия курикулума, предметный курикулум, современный урок, методика лирических произведений.

***Key words:*** education, curriculum concept, subject curriculum, modern lesson, teaching of lyrical novels.

**Современные требования к обучению содержанию лирических стихов**

**Резюме**

Наблюдения и результаты показывают, что в школьном опыте обучения лирических произведений является наиболее важным. Благодаря этому ученики обладают возможностью читать образцы поэзии. С помощью лирических произведений ученики изучают теоретические информации о лирике и лирическом жанре. Они демонстрируют культуру общения в обсуждениях исскуственных образцов.

**Modern requirements for teaching the content of lyrical poems**

**Summary**

The results of observations and researches show that teaching of the lyrical novels at school is necessary. As a result pupils own the skills of reading poetry. With the help of lyrical novels pupils learn theoretical information on lyric genre. During the dicussion of the metaphorical samples they bring communication culture out.